**Əlavə 6 (a)**

## *Qərbi Kaspi Universitetində* Dosent elmi adının verilməsinə dair tələblər

1. *Dosent elmi adı* elmi fəaliyyətə görə müsabiqə yolu ilə Elmi Şuranın qərarı ilə verilir.

*Qərbi Kaspi Universitetində* elmi tədqiqat bölmələrində direktor, elmi işlər üzrə direktor müavini, elmi katib, şöbə və ya laboratoriya müdiri, şöbə və ya laboratoriya müdirinin müavini, baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi vəzifələrindən birini tutan, fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi olan iddiaçılara aşağıdakı tələblər ödənildiyi halda verilir:

1.1. Əsas iş yeri Qərbi Kaspi Universiteti olan və 0,75 ştat və 1 ştat müəllim, baş müəllim tutan əməkdaşlara şamil edilir.

- Son 5 il üçün "ümumi istinadlarının sayı"nın ("Citations") ən azı 25 olması;
- Son 5 il üçün "Hirş indeksi"nin ("h-index") ən azı 2 olması;
- Qərbi Kaspi Universitetində azı 1 il iş stajı olanı

1.2. İddiaçılar ərizələrinə "Google Scholar", "Scopus" akademik platformasında müraciət tarixinə aid olan profillərinin surətini ("screenshot" yolu ilə) əlavə etməlidirlər.

1.3. iddiaçı fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) (Scopus) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər, təbiət elmləri üzrə ildə azı iki elmi məqalə təqdim etməlidir.

Qeyd: məqalələr Qərbi Kaspi Universitetinin adına dərc olunmalıdı

İMTİNA OLA BİLƏR:

- əməkdaş "Google Scholar" akademik platformasındakı profilində göstərilən məlumatlara nəticələri öz xeyrinə dəyişdirməyə yönəlmiş hər hansı bir müdaxilə etdiyi aşkarlandıqda;
- Müraciətlərə baxılması zamanı ekspertizanın nəticələri əsasında müəyyən edilmiş texniki səhv baş verdiyi halda.

**Əlavə 6 (b)**

## Qərbi Kaspi Universitetində Professor elmi adının verilməsinə dair tələblər

2. *Professor elmi adı* elmi fəaliyyətə görə müsabiqə yolu ilə Elmi Şuranın qərarı ilə verilir.

Qərbi Kaspi Universitetində elmi tədqiqat bölmələrində direktor, elmi işlər üzrə direktor müavini, elmi katib, şöbə və ya laboratoriya müdiri, şöbə və ya laboratoriya müdirinin müavini, baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi və zifələrindən birini tutan, fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi olan iddiaçılara aşağıdakı tələblər ödənildiyi halda verilir:

2.1. Əsas iş yeri Qərbi Kaspi Universiteti olan və 0,75 ştat və 1 ştat müəllim, baş müəllim tutan əməkdaşlara şamil edilir.

- Son 5 il üçün "ümumi istinadlarının sayı"nın ("Citations") ən azı 50 olması;
- Son 5 il üçün "Hirş indeksi"nin ("h-index") ən azı 4 olması;
- Qərbi Kaspi Universitetində azı 1 il iş stajı olanı

2.2. İddiaçılar ərizələrinə "Google Scholar", "Scopus" akademik platformasında müraciət tarixinə aid olan profillərinin surətini ("screenshot" yolu ilə) əlavə etməlidirlər.

2.3 iddiaçı fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) (Scopus) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər, təbiət elmləri üzrə ildə azı üç elmi məqalə təqdim etməlidir.

Qeyd: məqalələr Qərbi Kaspi Universitetinin adına dərc olunmalıdı

İMTİNA OLA BİLƏR:

- əməkdaş "Google Scholar" akademik platformasındakı profilində göstərilən məlumatlara nəticələri öz xeyrinə dəyişdirməyə yönəlmiş hər hansı bir müdaxilə etdiyi aşkarlandıqda;
- Müraciətlərə baxılması zamanı ekspertizanın nəticələri əsasında müəyyən edilmiş texniki səhv baş verdiyi halda.

**Elmi ad verilməsinə dair Qərbi Kaspi Universitetinə təqdim edilən sənədlərin**

**S İ Y A H I S I**

1. Ərizə
2. İddiaçının şəxsiyyət vəsiqəsinin surəti (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün pasportunun notarial qaydada təsdiq olunmuş surəti);
3. İddiaçının şəxsi məlumat vərəqi (AAK tərəfindən təsdiq olunan Forma əsasında doldurularaq əsas iş yerində təsdiq olunmalıdır);
4. İddiaçının əmək kitabçasının əsas iş yerində təsdiq olunmuş surəti;
5. İddiaçının fəaliyyəti haqqında rəhbəri tərəfindən imzalanmış və əsas möhürlə təsdiqlənmiş xasiyyətnamə;
6. İddiaçının pedaqoji fəaliyyəti haqqında müvafiq əmrlərdən çıxarış (hər ay üçün tədris yükü göstərilmiş arayış əlavə olunmalıdır);
7. İddiaçının ali təhsil haqqında diplomunun və ona əlavənin (xaricdə ali təhsil almış iddiaçı üçün əlavə olaraq ali təhsil sənədinin ekvivalentliyi haqqında Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş sənədin) notarial qaydada təsdiq olunmuş surətləri;
8. Fəlsəfə doktoru və elmlər doktoru diplomlarının (xaricdə elmi dərəcə almış iddiaçı üçün əlavə olaraq elmi dərəcə sənədinin nostrifikasiyası və ya təkrar attestasiya əsasında tanınması barədə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən verilmiş sənədin) surətləri
9. Google Scholar", akademik platformasında müraciət tarixinə aid olan profillərinin sürəti "screenshot" yolu ilə və linki.
10. "Scopus" akademik platformasında müraciət tarixinə aid olan profillərinin sürəti "screenshot" yolu ilə və linki.